# Göyçayda nar bayramı

Qızılı payızın gəlişi ilə regionlarımızda ilin əvvəlindən çəkilən zəhmətin müqabilində qazanılan uğurları bayram etmək üçün rəngbərəng tədbirlər keçirirlər. Göyçay rayonunda da həmçinin. Dünən təkcə ölkəmizdə deyil, onun hüdudlarından da çox-çox uzaqlarda bu yerin brend məhsulu kimi tanınan nara həsr olunan 13-cü "Nar festivalı" keçirildi. Builki "Nar festivalı"nda iştirak edənlər arasında dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, yerli və xarici iş adamları, beynəlxalq təşkilatların əməkdaşları da var idi.












Festivalın təntənəli açılış mərasimində qonaqlara nar şirələri və döş nişanları təqdim edildi. Məktəblilərin ifasında "Nar bayramı" rəqsi təqdim olunduqdan sonra Nar şahzadəsinin təbriki səsləndi.

Sonra rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə mərasimdə çıxış etdi. O bildirdi ki, "Nar festivalı" ənənə şəklini alıb. Payız mövsümü gələn kimi, təkcə göyçaylılar deyil, qonşu rayonların, digər şəhərlərin sakinləri də bu günü maraqla gözləyirlər. Nar və ondan hazırlanan məhsullar ixracyönümlü olduğundan bu sahənin inkişafına get-gedə daha çox diqqət yetirilir. Yeni bağlar salınır, mövcud sahələrin məhsuldarlığının artırılması üçün onlara göstərilən aqrotexniki qulluq gücləndirilir.

Hazırda Göyçayda 3 min 712 hektar nar bağı var. Bu il həmin sahələrdən 40 min tona qədər məhsul əldə olunub. Onun təxminən 20 min tonu Rusiya Federasiyasına, Ukraynaya və digər MDB ölkələrinə göndərilib.

Meyvəçiliklə yanaşı, digər sahələrdə də uğurlar əldə edilib. 22,1 min hektar sahədə kənd təsərrüfatı bitkilərinin əkini aparılıb. Cari ildə 14,7 min hektar taxıl sahəsindən 42,7 min ton məhsul toplanıb. Bu da 2017-ci ilin göstəricilərindən yüksəkdir. Taxılın məhsuldarlığı orta hesabla hər hektarda 29 sentner təşkil edib. Ötən ilin müvafiq dövrünə nibətən ət, süd, yumurta istehsalı, mal-qaranın və qoyunların sayı artıb. Bütövlükdə kənd təsərrüfatında ümumi məhsul istehsalı 89,2 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 1,8 faiz çoxdur.

Faraş tərəvəz istehsalı üçün ümumi sahəsi 270 hektardan çox olan 7581 örtülü istixana quraşdırılıb. Cari ilin doqquz ayında 44 min 725 ton tərəvəz istehsal edilib. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 4 min ton çoxdur. Faraş tərəvəz əsasən Rusiya bazarlarına ixrac olunub.

O da qeyd olundu ki, rayonun sənaye potensialından, emal müəssisələrinin güclərindən tam istifadə edilməsi üçün zəruri tədbirlər görülür. Yeni istehsal sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalı diqqət mərkəzində saxlanılır.

Festival açıq elan edildi. Repertuar olduqca zəngin idi. Əvvəlcə meydan uşaqlara verildi. Göyçay Uşaq musiqi məktəbinin kollektivi "Azərbaycanım" kompozisiyasını təqdim etdi. Xalçaçılıq məhsullarının sərgi-satışı, nar mövzusunda ağac üzərində oyma işlərinin, suvenirlərin sərgi-satışı, gənc rəssamların sərgisi maraqla qarşılandı. "Nargilə" folklor qrupunun çıxışı, "Təhsilimizin uğurları" adlı sərginin, Nar mövzusunda məktəblilərin əl işləri, "Nar şəfa mənbəyidir" adlı sərginin nümayişi, Nar mövzusunda tibb işçilərinin əl işləri iştirakçılara xoş təsir bağışladı.

Azərbaycan milli mətbəxi nümunələrinin nar ilə təqdimatı, təndir çörəyinin bişirilməsi, nardança, narşərab, nar mürəbbəsi və nardan hazırlanmış məmulatların bişirilərək təqdim edilməsi maraqla qarşılandı.

Milli folklor nümunələrinin təqdim edilməsi də cəlbedici idi. "AzNar" ASC-nin, "Göyçay-Süd" ASC-nin nar məhsullarından, "Qazelli" Şirkətlər qrupunun nardan hazırlanmış kosmetik vasitələrindən ibarət satış-sərgisi də tədbirin tərkib hissəsi idi.

"Ən gözəl nar qızı" müsabiqəsi, idmançılar tərəfindən milli idman növlərinin nümayişi, "Qızıl toy" mərasimi, toy mərasimində narla bağlı adətlərin yerinə yetirilməsi xoş ovqat yaratdı.

Narla bağlı əyləncəli müsabiqələr, ən böyük narın seçilməsi, milli üçlüyün ifalarının təqdim edilməsi, "Nar" Asossiasiyasının nar məhsulundan hazırlanmış şərab sexinə baxış, kəndlərin sərgi-satış yarmarkaları keçirildi.

Tədbirlərin keçirildiyi müddətdə suvenirlərin, şirniyyatların, çay və alkoqolsuz içkilərin satışı da təşkil olunmuşdu.

Festival yerli və paytaxtdan dəvət olunan incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı ilə davam etdirildi.

Lətişbulaq kəndinin sakini Vaqif Əhmədovun fikirlərini öyrəndik. Dedi ki, 4 qızım və 2 oğlum,12 nəvəm, 6 nəticəm var. 73 yaşım olmasına baxmayaraq, bu gün də əlim işdən soyumayıb. Ustayam, tikib-qurmaqla məşğul oluram. Övladlarım da özüm kimi halal zəhmətlə ruzilərini qazanırlar. Bu məhsul bayramı rayonumuzda meyvəçiliyin və turizmin inkişafı baxımından böyük əhəmiyyət daşıyır.

Milli Məclisin deputatı Elman Nəsirov festivalla bağlı belə dedi:

- Artıq 13 ildir ki, Göyçay şəhəri "Nar festivalı"na evsahibliyi edir. İnsanların bu bayrama hansı sevinc və həvəslə gəlmələrinə mən də şahid oldum. Hər kəs sevinir, fərəhlənir. Bu tədbir yerli sakinlərlə yanaşı ölkəmizdəki diplomatik nümayəndəliklərin rəhbərləri və səfirliklər üçün də böyük marağa səbəb olub. Sözsüz ki, onlar da bu tədbir haqqında öz ölkələrinə məlumat göndərəcəklər. Bu baxımdan bayram mahiyyəti və çəkisi etibarı ilə təkcə iqtisadi deyil, həm də siyasi məna kəsb edir. Mövcud festival, eyni zamanda, ölkəmizdəki sabitliyin, inkişafın göstəricisidir. Dövlət başçısı İlham Əliyevin Azərbaycanda həyata keçirdiyi uğurlu siyasətin birbaşa nəticəsidir. Həmçinin, ölkəmizdə kənd təsərrüfatına, qeyri-neft sektoruna böyük diqqət olması təsdiqini tapır. Sevinirik ki, belə böyük nailiyyətlər Göyçayda da var. Belə bayramlar həmin nailiyyətlərin nümayişi baxımından əhəmiyyətlidir.

Festival bu gün başa çatacaq.

***Əli SƏLİMOV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***